# Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində vətəndaşların hüquqlarının zəmanətləri haqqında

# Saziş

Bundan sonra Tərəflər adlanan Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti,

pensiya təminatı sahəsində əməkdaşlığı inkişaf etdirmək istəyərək,

bir-birinin suveren hüquqlarına hörmət edərək,

vətəndaşların pensiya təminatı sahəsində hüquqlarının müdafiəsinin zəruriliyindən çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

## *I bölmə. Ümumi müddəalar*

### *Maddə 1*

Bu Sazişin məqsədləri üçün:

a) «qanunvericilik» termini pensiya təminatı sahəsində qüvvədə olan qanunları, qərar və əsasnamələri özündə birləşdirir;

b) «səlahiyyətli orqan» termini bildirir:

- Azərbaycan Respublikası üçün—Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,
- Moldova Respublikası üçün—Əmək, Sosial Müdafiə və Ailə Nazirliyi;

v) «səlahiyyətli idarələr» termini pensiya təminatını həyata keçirmək işi tapşırılmış orqan və ya idarəni ifadə edir;

q) «daimi yaşayış yeri» termini Azərbaycan Respublikası qanunvericiliyi və ya Moldova Respublikası qanunvericiliyi ilə müəyyən edilən və ya bu qəbildə tanınan yaşayış yerini ifadə edir;

d) «vətəndaşlar» termini Azərbaycan Respublikasının ərazisində və ya Moldova Respublikasının ərazisində daimi yaşayan və pensiya təminatı sahəsində bu dövlətlərin qanunvericiliyinin şamil olunduğu şəxslər dairəsini əhatə edir;

e) «əmək (sığorta) stajı» termini hər bir dövlətin qanunvericiliyi ilə bu qəbildə tanınan əmək müddətini və ya digər fəaliyyət dövrünü ifadə edir.

### *Maddə 2*

Bu Saziş dövlətlərdən hər birinin qanunvericiliyi ilə müəyyən edilmiş və ya ediləcək vətəndaşların dövlət pensiya təminatına şamil edilir.

Bu Saziş üzrə pensiya təminatı dedikdə, Azərbaycan Respublikasının qanunvericiliyinə və ya Moldova Respublikasının qanunvericiliyinə müvafiq olaraq vətəndaşlara təyin edilən dövlət pensiyalarının bütün növləri başa düşülür.

### *Maddə 3*

Hərbi qulluqçuların, daxili işlər və dövlət təhlükəsizlik orqanlarının rəis və sıravi heyətindən olan şəxslərin pensiya təminatı, dövlət sosial sığorta sistemi ilə əhatə olunmayan digər vətəndaşların, həmçinin onların ailə üzvlərinin pensiya təminatı ayrı sazişlərlə tənzimlənir.

### *Maddə 4*

Bu Saziş qüvvəyə mindikdən sonra Tərəflər öz ərazilərində daimi yaşayan vətəndaşlara, o cümlədən digər dövlətin ərazisindən köçüb getmiş (gəlmiş) vətəndaşlara pensiya təminatı sahəsində öz vətəndaşların ilə eyni hüquqları verirlər.

## *II bölmə. Pensiya təminatının həyata keçirilməsi*

### *Maddə 5*

Bu Sazişlə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikası vətəndaşlarının və Moldova Respublikası vətəndaşlarının və onların ailə üzvlərinin pensiya təminatının onların ərazisində daimi yaşadıqları dövlətin qanunvericiliyi üzrə həmin dövlətin səlahiyyətli idarələri həyata keçirirlər.

### *Maddə 6*

Pensiyaçı dövlətlərin birinin ərazisindən digər dövlətin ərazisinə daimi yaşamaq üçün köçdükdə əvvəlki yaşayış yeri üzrə pensiya ödənişi dövlətlərdən hər birinin qanunvericiliyinə uyğun olaraq dayandırılır.

Daimi yaşamaq üçün razılıq almış pensiyaçıya yeni yaşayış yeri üzrə pensiya, pensiya üçün müraciət edilən vaxtadək 6 aydan çox keçməmək şərtilə, əvvəlki yaşayış yeri üzrə pensiya ödənişinin dayandırıldığı aydan təyin olunur.

### *Maddə 7*

Vətəndaşın köçüb gəldiyi dövlətdə nəzərdə tutulmayan əsaslarla təyin edilmiş pensiya ödənişi, yaşadığı dövlətin qanunvericiliyi üzrə pensiya hüququ (o cümlədən başqa növ pensiya) yaranan vaxtadək ona pensiya təyin etmiş dövlət tərəfindən davam etdirilir.

### *Maddə 8*

Güzəştli əsaslarla və xidmət illərinə görə pensiyalar da daxil olmaqla, pensiya hüququ müəyyən edilərkən, həm Azərbaycan Respublikasının qanunvericiliyinə, həm də Moldova Respublikasının qanunvericiliyinə, o cümlədən bu Saziş qüvvəyə minənə qədər əldə edilmiş, həmçinin SSRİ ərazisində 1 yanvar 1992-ci ilə qədər qazanılmış əmək

(sığorta) stajı nəzərə alınır. Bu zaman əmək (sığorta) stajının hesablanması pensiya təyin edən dövlətin qanunvericiliyi üzrə aparılır.

### *Maddə 9*

Bir dövlətin ərazisindən digər dövlətin ərazisinə köçüb getdikdən sonra işləyən vətəndaşlara o halda pensiyanın həcmi köçüb gəldikdən sonrakı əmək haqqından (gəlirdən) hesablanır ki, onlar köçüb gəldikləri dövlətin qanunvericiliyi ilə əmək haqqından pensiya hesablanması üçün tələb olunan minimum əmək (sığorta) stajı qazanmış olsunlar.

Bir dövlətin vətəndaşı digər dövlətin ərazisinə köçdükdən sonra işləməmişdirsə, yaxud bu maddənin I hissəsindəki şərtlərə cavab vermirsə pensiyanın həcmi köçüb gəldiyi dövlətin ərazisində onun axırıncı peşə və ixtisasına bərabər tutulan müvafiq peşə və ixtisasa uyğun orta aylıq əmək haqqından hesablanır.

Yuxarıda göstərilən qaydada orta aylıq əmək haqqını müəyyən etmək mümkün olmadıqda pensiyanın həcmi vətəndaşın köçüb gəldiyi dövlətin ərazisində pensiya təyin olunan zaman qüvvədə olan qaydalara uyğun orta aylıq əmək haqqından hesablanır.

### *Maddə 10*

Əmək zədəsi nəticəsində əlilliyə və ailə başçısını itirməyə görə pensiya, zədə alınan vaxtda işçiyə qanunvericiliyi tətbiq olunan dövlət tərəfindən təyin olunur və ödənilir.

Peşə xəstəliyi nəticəsində baş vermiş əlilliyə və ailə başçısını itirməyə görə pensiyalar bu xəstəliyin ilk dəfə digər dövlətin ərazisində aşkar edilməsindən asılı olmayaraq işçinin bu xəstəliyin yaranmasına səbəb olan əmək fəaliyyətinin həyata keçirildiyi dövlətin qanunvericiliyinə uyğun təyin edilir və ödənilir.

Peşə xəstəliyi həm Azərbaycan Respublikasının qanunvericiliyinə, həm də Moldova Respublikasının qanunvericiliyinə müvafiq olaraq yerinə yetirilən əmək fəaliyyəti nəticəsində baş verdikdə peşə xəstəliyi nəticəsində əlilliyə və ailə başçısını itirməyə görə pensiyalar göstərilən əmək fəaliyyətinin axırıncı dəfə yerinə yetirildiyi dövlətin qanunvericiliyi ilə təyin edilir və ödənilir.

### *Maddə 11*

Bu Saziş üzrə pensiya təminatının həyata keçirilməsinə çəkilən xərclər pensiyaçının ərazisində daimi yaşadığı Tərəfin vəsaiti hesabına aparılır. Tərəflərin arasında qarşılıqlı hesablaşmalar aparılmır.

Bu Sazişin 7-ci və 10-cu maddələrinə müvafiq olaraq pensiya ödənişinə çəkilən xərclər pensiya ödəyən Tərəfin vəsaiti hesabına pensiyaçının ərazisində daimi yaşadığı Tərəfin valyutası ilə aparılır.

Pensiyaların ödənişi (köçürülməsi) qaydası Tərəflərin pensiya ödənişini maliyyələşdirən orqanları arasında xüsusi sazişlə müəyyən olunur.

## *III bölmə. Səlahiyyətli orqanlar arasında əməkdaşlıq*

### Maddə 12

Tərəflər vətəndaşların pensiya təminatının həyata keçirilməsi ilə əlaqədar bütün məsələlər üzrə əməkdaşlıq edəcəklər.

### Maddə 13

Tərəflərin səlahiyyətli orqanları qüvvədə olan pensiya qanunvericiliyi, onda olan dəyişikliklər, həmçinin vətəndaşa pensiya təyin olunması üçün əhəmiyyəti olan hallar barəsində bir-birinə əvəzsiz əsaslarla zəruri məlumatlar verirlər.

### Maddə 14

Azərbaycan Respublikasının ərazisində və Moldova Respublikasının ərazisində verilən, o cümlədən bu Saziş qüvvəyə minənə qədər, həmçinin SSRİ ərazisində 1 yanvar 1992-ci ilə qədər, pensiya təminatı üçün zəruri olan sənədlər leqallaşdırılmadan qəbul edilir.

## IV bölmə. Yekun müddəalar

### Maddə 15

Bu Sazişə dəyişiklik və əlavələr danışıqlar yolu ilə Tərəflərin razılığı əsasında ayrıca protokolda rəsmiləşdirilməklə aparıla bilər.

Protokolun qüvvəyə minməsi qaydası 16-cı maddəyə müvafiq müəyyən edilir.

### Maddə 16

Bu Saziş Tərəflərin, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurаları yerinə yetirmələri barədə yazılı xəbərdarlığı diplomatik kanallarla bir-biri ilə mübadilə etdiyi andan qüvvəyə minir.

### Maddə 17

1. Tərəflərdən hər biri digər Tərəfi altı ay qabaqdan yazılı şəkildə xəbərdar etməklə bu Sazişə xitam verə bilər. Bu zaman Sazişə xəbərdarlıqda göstərilən tarixdən, lakin xəbərdarlığın alındığı gündən sonra hesablanmaqla altı aydan tez olmamaq şərtilə, xitam verilir.

2. Bu Sazişə müvafiq olaraq vətəndaşların yaranmış olduğu pensiya hüquqları ona xitam verildiyi hallarda da qüvvədə qalır.

3. Bakı şəhərində 1997-ci il noyabrın 27-də hər biri Azərbaycan, moldav və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının şərhində fikir ayrılığı yarandığı halda Tərəflər rus dilində olan mətndən istifadə edirlər.

| | |
|---|---|
| ***Azərbaycan Respublikası Hökuməti*** | ***Moldova Respublikası Hökuməti*** |